**“Auditorlar Palatasının saytında sorğular və ekspertizalar kitabxanasının yaradılması” barədə**

**M Ə L U M A T**

Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən auditorların müraciətləri, dünyada rəqəmsallaşma sahəsində baş verən hadisələri, 2022-ci il ərzində keçirilən sorğuların nəticələrini və Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 2.8-ci “Auditorlar Palatasının saytında sorğular və ekspertizalar kitabxanasının yaradılması” bəndini nəzərə alaraq, Auditorlar Palatasının saytında sorğular və ekspertizalar kitabxanasının yaradılması zəruri hesab edilmişdir. Bu işlə əlaqədar 2023-cü ilin fevral ayında bütün işlər yekunlaşdırılmışdır və Palatanın rəsmi internet səhifəsində “Sorğular və ekspertizalar kitabxanası” bölməsi yaradılmışdır, həmin bölmə aşağıda verilir:




Bölmə yaradılarkən 1 ay ərzində proqramçılar ilə müvafiq işlər aparılmışdır və nəticə olaraq sistem yaradıldıqdan sonra İctimaiyyətlə əlaqə və informasiya şöbəsi (Z.Almazov) tərəfindən həmin bölmədə Palatanın 2022-ci il üzrə “Auditorlar Palatasının üzvləri arasında keçirilən sorğu”, “Auditorlar arasında peşə fəaliyyətinə dair keçirilən sorğu”, “Auditor xidmətinin sifarişçiləri arasında aparılan sorğu” və 2023-cü il üzrə “Auditorun peşə fəaliyyətinə dair keçirilən sorğu”lar üzrə təhlil nəticələri yerləşdirilmişdir.